### BAM inşaatçılarının qənaəti:

# HEYDƏR ƏLİYEV – XALQLAR DOSTLUĞUNA ÖNƏM VERƏN QÜDRƏTLİ LİDER



**1969-cu il iyulun 14-də hakimiyyətə gələn Heydər Əliyev qısa zaman ərzində keçmiş ittifaqın hər yerində tanınır, sevilirdi. Azərbaycan rəhbərinin Moskvanın ən yüksək tribunalarında obyektiv, cəsarətli, dərin məzmunlu çıxışları ittifaq miqyasında məhəbbətlə, rəğbətlə qarşılanır və böyük rezonans doğururdu. Kremldə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işlədiyi dövrdə hörməti, şöhrəti, nüfuzu sərhədləri aşıb bütün qitələri dolaşırdı.**




Bunu 1970-1980-ci illərin gəncləri yaxşı xatırlayırlar. Rəhbərin hər sözünün, cümləsinin arxasında Azərbaycana sevgi, xalqa məhəbbət dayanırdı. Gəncləri yurda, torpağa bağlı, ölkənin gələcəyi üçün fədakar, zəhmətkeş, həqiqi vətəndaşlar kimi görmək istəyirdi.

Həmsöhbətim **Xeybər Abbasov** Lənkəran rayonunun Kərgələn kəndindəndir. 1977-ci ildə doğma kəndində orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin tarix fakültəsinin məzunudur. Belorusiyada həqiqi hərbi xidmət keçəndən sonra Vətənə dönüb. 1980-ci ildə komsomolun göndərişi ilə Baykal-Amur Magistralının tikintisinə yollanıb. O unudulmaz tarixi günləri belə xatırlayır:



- Əsgərlikdən təzə qayıtmışdım. O vaxtlar BAM ümumittifaq tikintisi hesab olunurdu. Bu nəhəng, əzəmətli layihə Sibir və Uzaq Şərq regionlarının təbii sərvətlərindən istifadə olunmasına, zəruri ehtiyac duyulan ərazilərə çatdırılmasına, bölgələrdə həyatın canlanmasına geniş imkanlar açacaqdı.

Tikintiyə maraq böyük idi. Sibir və Uzaq Şərqi birləşdirəcək magistralın tikintisi keçmiş sovet ittifaqında böyük əks-səda doğurmuşdu. 1975-ci ildən başlayaraq qurub-yaratmaq həvəsli minlərlə azərbaycanlı BAM-ın tikintisində işləmək üçün Sibirə yollanmışdı. Burada çalışan inşaatçılara yüksək əməkhaqqı verilirdi. Tikinti işlərində fərqlənənlər üçün "Baykal-Amur Magistralının tikintisinə görə" medalı da təsis olunmuşdu.

Ölkəmizin müdrik rəhbəri Heydər Əliyev magistralın tikintisində çalışan azərbaycanlıların işi və qayğıları ilə yaxından maraqlanır, diqqət və köməyini əsirgəmirdi. Respublikaya qayıdandan sonra həmin gənclər mənzillə təmin edilir, onların təhsil almasına, işlə təmin olunmasına, sosial problemlərinin həllinə kömək göstərilirdi.

1980-cı ildə BAM-ın tikintisinə töhfə vermək arzusu ilə respublika komsomolunun mərkəzi aparatına müraciət etdim. Qısa vaxtda sənədlərim hazırlandı və bizi yola saldılar.

BAM sözün əsl mənasında dünyanın ən nəhəng tikintisi idi. Magistralın ümumi uzunluğu 4324 kilometr olacaqdı. Bəli, burada hər şey möcüzə təsiri bağışlayırdı. Bir tərəfdən dəmiryolu xətti çəkilir, layihəyə düşən ərazlərdə meşələr qırılır, bataqlıqlar qurudulur, tunellər çəkilir, digər tərəfdən magistral boyunca yeni yaşayış məntəqələri, şəhər və qəsəbələr salınır, dəmiryolu stansiyaları, lazımi infrastruktur yaradılırdı. Magistralın tikintisinə bütün ittifaq respublikaları cəlb olunmuşdu. Bu nəhəng tikintidə hər respublikanın görəcəyi işlər əvvəlcədən planlaşdırılmışdı. Magistralın 210-cu kilometrliyindən başlayaraq Ulkan və Anqoya adlı iki qəsəbənin salınması Azərbaycandan gəlmiş inşaatçıların payına düşürdü. Qəsəbələrin ölkəmizin milli memarlıq ənənələrinə uyğun tikilməsi nəzərdə tutulmuşdu.

Kilometrlərlə uzanan obyektin tikintisində işlər bulaq kimi qaynayırdı. Mən traktor, ekskavator və lazım gəldikdə digər ağır texnikaları idarə edir, avtomobillərin gedə bilmədiyi ərazilərə yol çəkir, meşə materialları, müxtəlif təyinatlı yüklər daşıyırdım.

Heydər Əliyev Moskvada yüksək vəzifəyə təyin olunandan sonra BAM-ın tikintisinə də rəhbərlik edirdi. Əsrin tikintisində çalışan azərbaycanlılar bundan hədsiz sevinir, qürur duyurdular.

Tikintidə müxtəlif millətlərin nümayəndələri gecə-gündüz bilmədən böyük coşqu, gənclik enerjisi ilə işləyirdilər. Azərbaycanlılar, ruslar, gürcülər, Orta Asiyadan, Pribaltikadan gəlmiş xalqların nümayəndələri vahid ailədə birləşmişdilər.

Heydər Əliyev BAM-a səfəri zamanı inşaatçılarla iş başında görüşür, Adamlara dövlət məmuru kimi yox, əsl insan kimi yanaşır, niyə bu tikintiyə gəldiklərini, narahatlıqlarının səbəblərini soruşurdu. İnşaatçıların xahişini, təkliflərini diqqətlə dinləyib yerindəcə tədbir görürdü. O, heyrətamiz dərəcədə böyük rəhbər, müdrik şəxsiyyət idi. BAM-da çalışan, müxtəlif millətlərdən olan zəhmət adamları Heydər Əliyevə inanır və onu çox istəyirdilər. Müdrik rəhbərimizin adı BAM inşaatçıları arasında xalqlar dostluğunun rəmzinə çevrilmişdi.

Ömrümün 6 ilini BAM-ın tikintisinə həsr etmişəm. İnşaatçıların gündəlik əməyi cəsarət, əzmkarlıq və qəhrəmanlıq nümunəsi idi. Sərt iqlim, yolsuzluq, mürəkkəb relyef şəraitində hamı üzərinə düşən vəzifəni şərəflə yerinə yetirirdi.

1984-cü ildə Heydər Əliyevin keçmiş ittifaq rəhbərlərinin müşayiəti ilə BAM-a səfəri tikintidə böyük dönüşə, yüksəlişə səbəb oldu. Heydər Əliyevin qətiyyəti, yorulmaz səyləri, müdrik rəhbərliyi sayəsində inşaatçılar zamanı qabaqladılar, bu nəhəng nəqliyyat arteriyası həyata vəsiqə qazandı. Əlbəttə, bu, o dövrdə böyük şərəf və həm də ciddi məsuliyyət idi.

O illərdə azərbaycanlı mütəxəssislər Baykal-Amur Magistralının yaradılmasına və inkişafına böyük töhfələr verdilər. 2008-ci ildə Anqoya stansiyasındakı vağzala ümummilli lider Heydər Əliyevin adı verildi. Ulu öndərin əzəmətli xatirə lövhəsi stansiyanı bəzəyir.

Moskvada Azərbaycan Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə Rusiyanın dövlət başçısı ulu öndərin BAM-ın inşasında müstəsna xidmətlərini, böyük bilik və təcrübəsini, idarəçilik istedadını, ən mürəkkəb, nəhəng problemləri həll etmək bacarığını yüksək qiymətləndirib.

Ölkəmizin Prezidenti cənab İlham Əliyev görüş zamanı söylədiyi nitqində deyib: *"Rusiya rəhbərliyinin, həmçinin ictimaiyyətinin Heydər Əliyevin xatirəsinə göstərdikləri ehtiramı Azərbaycanda yüksək qiymətləndiririk. Qeyd etdiyiniz kimi, Heydər Əlirza oğlu Əliyev vaxtilə ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində fəal iştirak edib və onun reallaşdırılmasına öz töhfəsini verib".*

İki qonşu, dost ölkələr arasında səmərəli, qarşılıqllı əməkdaşlıq, işgüzar əlaqələr uğurla davam etdirilir. Ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin inşası ilə əlaqədar mühüm addımlar atılır. Bir vaxtlar ümumittifaq tikinti layihəsinə çevrilən və bütün ittifaq respublikalarının mənafeyinə xidmət edən BAM kimi, "Şimal-Cənub" nəqliyyat dəhlizi də ən geniş beynəlxalq əməkdaşlığın nümunəsinə çevriləcəkdir. Layihənin həyata keçirilməsində BAM inşaatçılarının zamanın sınaqlarından çıxmış dostluq və qarşılıqlı yardım ənənələrindən istifadə yeni bəhrələr verəcəkdir.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**